# *İSTEDADLI UŞAQLARLA İŞ*
# *РАБОТА С ТАЛАНТЛИВЫМИ ДЕТЬМИ*
# *WORKING WITH TALENTED CHILDREN*

*UOT 37.0*

***Roza Darvin qızı İsmayılova***
*Azərbaycan Dillər Universitetinin müəllimi*
https://orcid.org/ 009-004-9429-574X

## İSTEDADLI UŞAQLARA YANAŞMA METODİKASI

***Роза Дарвин гызы Исмайлова***
*преподаватель Азербайджанского Университета Языков*

## МЕТОДИКА ПОДХОДА К ОСОБО ТАЛАНТЛИВЫМ ДЕТЯМ

***Roza Darvin Ismayilova***
*lecturer at Azerbaijan University of Languages*

## METHODS OF APPROACH TO ESPECİALLY TALENTED CHİLDREN

**Xülasə.** Müasir dövrdə ölkənin inkişafı, xalqın tərəqqisi və maddi rifahı texniki tərəqqinin, kompüter və informasiya texnologiyalarının yüksək inkişaf səviyyəsindən asılıdır. Bu baxımdan dövlətimizin iqtisadi və siyasi cəhətdən daha güclü inkişafı üçün düşünən beyinə, istedadlı, zəkalı elm sahiblərinə həmişə ehtiyacı var. Bu məqsədlə dövlətimiz xüsusi qabiliyyəti və istedadı olan uşaqların aşkara çıxarılıb onlarla hərtərəfli iş aparılmasını məhz təhsil ocaqları qarşısında aktual məsələ kimi qoymuşdur. Bu işdə məktəbin, müəllimin üzərinə mühüm vəzifələr düşür. Müşahidələr və araşdırmalar göstərir ki, məktəblərdə istedadlı uşaqlar az deyil. Sadəcə onları üzə çıxarmaq, düzgün istiqamətləndirmək lazımdır. Onların yaradıcılıq qabiliyyətini inkişaf etdirmək vacibdir. Aydındır ki, intellekt yalnız məktəbdə və ya universitetdə təhsilalma qabiliyyəti deyil. İntellekt hər bir insan üçün fərdi xüsusiyyət daşıyır. Uşağın intellektinin inkişafı onun bütün cəhətlərini yaxşılaşdırmağa yönəldilir. Buna görə də, məsələn, məktəbdəki müvəffəqiyyəti ilə fərqlənməyən uşaqlar haqqında intellektin aşağı səviyyəsindən danışmaq kökündən səhvdir.

***Açar sözlər:*** *istedadlı, uşaqlar, təhsil, inkişaf, metodika*

**Резюме:** В современный период развитие страны, прогресс в жизни народа и финансовое благополучие зависят от высокого уровня технического прогресса, компьютерных и информационных технологий. С этой точки зрения всегда есть потребность в ясных умах, талантливых и толковых ученых для экономического и политического развития нашей страны. С этой целью наше государство выделило детей с особыми способностями и талантами как актуальную тему для проведения с ними многосторонней работы со стороны образовательных учреждений. В этом вопросе школа и учителя несут большую ответственность. Наблюдения и исследования показывают, что талантливых детей в школах немало. Просто нужно раскрыть их способности и правильно их направить. Важно развивать их творческие способности. Очевидно, что интеллект – это не только способность учиться в школе или университете. Интеллект уникален для каждого человека. Развитие интеллекта ребенка направлено на совершенствование всех его качеств. Поэтому в корне неправильно говорить о низком уровне интеллекта, например, у детей, которые не отличаются особыми успехами в школе.

***Ключевые слова:*** *одаренные, дети, воспитание, развитие, методика*

**Summary:** In the modern period, the development of the country, progress in the life of the people and financial well-being depend on a high level of technical progress, computer and information technologies. From this point of view, there is always a need for clear minds, talented and intelligent

scientists for the economic and political development of our country. To this end, our state chose children with special abilities and talents as a relevant topic for multilateral work with them by educational institutions. Schools and teachers have a great responsibility in this regard. Observations and studies show that there are many talented children in schools. You just need to discover their abilities and direct them correctly. It is important to develop their creative abilities. Obviously, intelligence is not only the ability to study at school or university. Intelligence is unique to each person. The development of the child's intellect is aimed at improving all his qualities. Therefore, it is fundamentally wrong to talk about a low level of intelligence, for example, in children who are not very successful at school.

***Key words:*** *gifted, children, education, development, methodology*

İnkişaf etmiş ölkələrin inkişafının səbəbləri müzakirə olunarkən məlum olur ki, inkişaf ölkə xammalına görə deyil, intellekt tutumlu məhsullarına görə irəliləyir. Təbii haldır ki, nə vaxtsa xammal tükənə bilər, amma insan intellektinin inkişafına qoyulan investisiya heç zaman itmir, daha da artır. Bunun üçün də ölkənin aparıcı sahələrində yüksək intellektə malik kadr potensialını artırmaq zəruridir.

Ölkəmizdə də bu sahədə erkən yanaşmanı əsas tutaraq "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" qəbul edilmişdir. Bu sahədə sürətlə irəliləmək üçün, ilk öncə, təhsil ocaqlarından başlayaraq, sistemli tədbirlər aparılmalıdır. Belə ki, 1999-cu ildən qüvvəyə minən ümumi orta təhsilin dövlət standartları çərçivəsində təsdiq olunmuş ümumtəhsil məktəblərinin bazis tədris planında seçmə fənlərə ayrıca saatların ayrılması da istedad potensialının aşkara çıxarılıb formalaşdırılmasına, həmin uşaq və gənclərlə iş sisteminin təkmilləşdirilməsinə müəyyən dərəcədə müsbət təsir göstərmişdir. (4)

Araşdırmalar zamanı məlum oldu ki, istedadlı uşaqların bacarıq və qabiliyyətlərinin üzə çıxarılması məsələlərində bəzi çatışmazlıqlar var. Bunları konkretləşdirsək, aşağıdakı problemləri sadalaya bilərik:

- istedadlı uşaq və gənclərin inkişaf perspektivlərini müəyyənləşdirən sosial-psixoloji tədqiqatların hələ də aşağı səviyyədə aparılması;
- istedadlı uşaq və gənclərin aşkara çıxarılması üzrə və belə uşaqlarla iş sahəsində elmi-pedaqoji və psixoloji cəhətdən əsaslandırılmış ardıcıl sistemin, səmərəli fəaliyyət və konkret mexanizmlərin yaradılmaması;
- ümumtəhsil məktəblərində məktəb psixoloqu kadrlarına ehtiyac səbəbindən psixoloji xidmətin zəif həyata keçirilməsi;
- pedaqoji ali və orta ixtisas məktəblərində müəllimlik peşəsinə hazırlanan tələbələrə istedadlı uşaqlarla iş sahəsində nəzəri biliklərin, xüsusi metodikaların aşılanmaması;
- Milli Elmlər Akademiyası və ali məktəblərlə yeni tipli təhsil müəssisələri arasında əlaqələrin zəif olması, tanınmış elm, təhsil, mədəniyyət və incəsənət xadimlərinin istedadlı uşaq və gənclərlə aparılan işlərə az cəlb edilməsi;
- respublikanın bir çox bölgələrində istedad və qabiliyyəti ilə fərqlənən uşaq və gənclər üçün yeni tipli tədris ocaqlarının əlçatan olmaması;
- uşaq və gənclərin bu və ya digər sahələr üzrə istedadının müəyyən edilməsində mühüm rol oynayan diaqnostik metodikaların, xüsusi testlərin, o cümlədən psixometrik testlərin hazırlanıb çap olunmaması;
- istedadlı uşaq və gənclərin fənn olimpiadalarına daha geniş surətdə cəlb edilməsi üçün olimpiada qaliblərinə müəyyən imtiyazların təsis edilməməsi, onları hazırlayan müəllim və mütəxəssislərin əməyinin stimullaşdırılmaması;
- istedadlı uşaq və gənclərin təhsil aldıqları yeni tipli tədris müəssisələri barədə tədris-pedaqoji və normativ hüquqi bazanın zəif olması;
- beynəlxalq təcrübənin tətbiq olunmaması.

Bu kimi problemlərin həlli üçün peşəkar pedaqoq komandası birlikdə qərarlar qəbul etməlidir. Hər bir istedadlı uşaq üçün qiymətləndirilmə və fərdi inkişaf planları tərtib edilməlidir. Çünki digər uşaqlar kimi istedadlı uşaqlara da yanaşma mexanizmi individual olmalı, diferensial və fərdi yanaşma prinsiplərindən istifadə edilməlidir.

Belə uşaqların aşkar edilməsində əsas güc onları yetişdirən valideynlərə düşür. Öz uşağının intellekt, qabiliyyətini digər uşaqlardan daha üstün, daha fərqli olduğunu hiss edən valideynlər araşdırma aparmalı, uşağı bağçada, ya da

məktəbdə təhsil alırsa, uşağının istedadına bələd olan müəllimi ilə mütəmadi əlaqə saxlamalı, istedadının irəliləməsi üçün peşəkar pedaqoqların sayəsində xüsusi proqramlar tərtib edilməli, uşağın psixoloji mühitini yormayan, həvəsini artıran metod və üsullar müəyyən edilməlidir.

Elmə məlum olan insan idrakının inkişafına təsir edən bir çox alimlərin nəzəriyyələri mövcuddur. Bunlardan biri də Hovard Qardnerin "Çoxsahəli əqli qabiliyyətlər" nəzəriyyəsidir. (3, s. 65)

Bu nəzəriyyənin təhlili zamanı məlum olur ki, hər kəsin ətraf mühiti qavrama üsulu fərqlidir. Nəzəriyyədəki mexanizmə görə hər bir insan aşağıdakı 9 intellektə uyğun olaraq ətraf mühiti qavraya bilir:

**Hovard Qardnerin**
**"Çoxsahəli əqli qabiliyyətlər" nəzəriyyəsi**

| № | Nəzəriyyə | Şərhi |
|---|---|---|
| | Linqvistik (linguistic) – sözə yönəlik. | - Nitqi ilə dinləyənləri heyran edir. Oxu, yazı, dinləyib-danışmada fərqli strukturlar yarada bilir.<br>- Hekayə, şeir yazma kimi fəaliyyətlərdən zövq alır.<br>- Yüksək dinləmə vərdişləri var.<br>- Dinləyərək, oxuyaraq, yazaraq və danışaraq öyrənir. |
| | Riyazi–məntiqi (logical–mathematical) | - Tapmaca və məntiqi oyunları çox sevir.<br>- Qrafik və ya şəkil formasında olan vizual məlumatları şərh edir.<br>- Kompüter proqramları hazırlayır.<br>- Qrafik, sxem və şəkillərlə işləməyi xoşlayır.<br>Karyeraları hansı istiqamətdə uğurludur?<br>Mühasib; biznesmen; texnik; iqtisadçı; riyaziyyat |
| | Vizual – məkan (visual-spatial) – fəza təsvirli: | - Görərək və müşahidə edərək öyrənir.<br>- Asanlıqla istiqamət tapmaq bacarığına malikdir.<br>- Eşitdikləri əsasında fikri obyektlər, xəyallar, rəsmlər yaradır. Öyrəndiyi bilikləri xatırlayarkən bu fikri rəsmlərdən istifadə edir. |
| | Kinestetik (bodily-kinesthetic) – fiziki hərəkətlər edərək | - Aktiv hərəkətlə daha yaxşı öyrənir. Eşitdiklərindən daha çox hərəkətlə göstərilənləri xatırlayır.<br>- Fiziki məharət tələb edən işlərdə (rəqs, idman) yeniliklər kəşf edir, fərqləri aşkarlayır.<br>- Aktyorluq, atletizm, rəqs, tikmə, naxış vurma sahələrində xüsusi bacarıqları vardır.<br>Karyera seçimləri: atlet, rəqqas, xoreoqraf, zərgər, dülgər, fiziki terapevt |
| | Fərdlərarası (interpersonal) – sosial, cəmiyyətə yönəlik: | - Həm yaşıdları, həm də müxtəlif yaş qrupları ilə birlikdə olmaqdan zövq alır.<br>- Müxtəlif mədəniyyətlər və yaşam tərzləri ilə maraqlanır.<br>- Güclü yumor hissinə malikdir.<br>- Sözdən və bədən dilindən mükəmməl şəkildə istifadə edir.<br>- Müxtəlif mühitlərdə və müxtəlif toplumlarda asanlıqla mühitə uyğunlaşmağa çalışır.<br>- İnsanları yönəltməyi bacarır. Liderlik xüsusiyyətlərinə malikdir. |
| | Fərddaxili (intrapersonal) – özünə yönəlik | - Həm yaşıdları, həm də müxtəlif yaş qrupları ilə birlikdə olmaqdan zövq alır.<br>- Müxtəlif mədəniyyətlər və yaşam tərzləri ilə maraqlanır.<br>- Güclü yumor hissinə malikdir.<br>- Sözdən və bədən dilindən mükəmməl şəkildə istifadə edir.<br>- Müxtəlif mühitlərdə və müxtəlif toplumlarda asanlıqla mühitə uyğunlaşmağa çalışır.<br>- İnsanları yönəltməyi bacarır. Liderlik xüsusiyyətlərinə malikdir. |
| | Musiqi-ritmik (musical intelligence) – ritmə yönəlik: | - İnsan səsindən başlamış təbiət səslərinə qədər ən müxtəlif səslərə qarşı həssasdır. Səsləri dinləyir və onlara qarşılıq verir.<br>- Musiqi sənət aləminə qatılmağa meyllidir.<br>- Səslər, notlar, ritmlər hər zaman, hər yerdə diqqətini cəlb edir.<br>- Musiqi alətləri ilə maraqlanır. Asanlıqla alətlərdə ifa etməyi öyrənir.<br>- Bütün günü bildiyi mahnıları zümzümə edib oxuyaraq gəzir. |

| | | |
|---|---|---|
| | Naturalist (naturalist) – təbiətə yönəlik: | Demək olar ki, təbiətdə hər bir canlının yaşamı ilə maraqlanır. Müxtəlif növlərin adını bilir. Çiçək növləri, heyvan növləri onların diqqətini çəkir.<br>- Zoologiya, botanika, üzvi kimya, tibb, fotoqrafiya, dalğıclıq, ləpirçilik, və s sahələrlə maraqlanır.<br>- Səyahət etməyi, sənədli filmləri, təbiət və səyahət jurnallarını sevir.<br>- Bitki növlərinə həssaslıqla yanaşır.<br>- Təbiətin insanlara və insanların təbiətə təsiri ilə maraqlanır. |
| | Ekzistensial intellekt– fəlsəfi düşünmək | Bu intellektin təzahürlərinə fəlsəfi düşünmək qabiliyyəti daxildir. Onlar erkən yaşlarından yüksək səviyyəli düşüncələri ilə fərqlənirlər. Hisslərini anlayır və onları idarə edə bilirlər. Onlar sağlam düşünə bilir və nəticə çıxara bilirlər. Erkən yaşlarından onları insanın yaradılışı, varlığı, həyatın mənası və ölümlə bağlı mövzular maraqlandırır və dünyanın yaranışı ilə bağlı müxtəlif fikirlər irəli sürür, müzakirələr və mübahisələr aparır, başqalarının konsepsiya və fikirlərini araşdırırlar. İlahi elmlər və fəlsəfə ilə dərindən maraqlanır, sağlam düşünərək uzunmüddətli planlar qurur və bu planlara riayət edə bilirlər. |

İstedad o qədər zərif və kövrəkdir ki, hər yaranan zəif psixoloji mühitdə "qırıla" bilər. Əgər cəmiyyətimiz belə insanları qazanmaq istəyirsə, onlar üçün lazımi şəraiti də yaratmalıdır: xüsusi məktəblərin yaradılmasından tutmuş, onlarla işləyən müəllimlərin yetişdirilməsində, həvəsləndirici tədbirlərdən tutmuş, iş şəraitinin yaradılmasına qədər və s.

İstedadlı şagirdlərin aşkar edilməsi və onlara yanaşma metodikasını aşağıdakı kimi formalaşdırmaq olar:

- kiçikyaşlı uşaqların psixoloji cəhətdən mütəxəssislər tərəfindən araşdırılması;
- dərs prosesində problemli-situasiyanın yaradılması;
- məsələ nümunələrinin tərtibi və həll etdirilməsi;
- həlli çətinləşdirilmiş məntiqi məsələlər üzərində iş;
- olimpiada yarışlarına hazırlıq, olimpiadalarda uşaqların iştirakı, nəticələrinin təhlili;
- referat, albom, cədvəl, sxem, diaqram tərtib etmək, esse xarakterli mətnlər yazdırmaq, onlar üzərində mühakimələr aparmaq, əqli nəticələr çıxarmaq;
- dərslikdən, elmi ədəbiyyatdan, soraq kitablarından, qrafik testlərdən, lüğətdən istifadə etmək;
- müxtəlif variantlardan "Test toplularından" istifadə etdirmək, məntiq, düşüncə, xüsusi yaradıcılıq tələb edən testlər etmək ;
- viktorina yarışlarında, intellekt oyunlarında, fənn üzrə keçirilən sınaq oyunlarında şagirdlərin iştirakını təmin etmək.

Belə nəticəyə bilərik ki, cəmiyyət müasir problemlərin həllini, əsasən, məhz bu uşaqlardan gözləyir. Bu səbəbdən də belə uşaqların vaxtında aşkarlanması, dəstəklənməsi və inkişaflarının təmin edilməsi təlimin prioritet məqsədlərindəndir. Cəmiyyətimizə təkcə bilikli, savadlı yox, həm də hərtərəfli "insan" kimi yetişmiş vətəndaş lazımdır.

**Problemin aktuallığı.** Hər dövrdə olduğu kimi, müasir dövrdə də intellekti yüksək, istedadlı şagirdlərin öyrənilməsi və elm qazandırılması hər zaman öz aktuallığını qoruyub saxlamışdır.

**Problemin elmi yeniliyi.** Yeni təhsil konsepsiyasından irəli sürülən istedadlı şagirdlərə verilən tələblərin reallaşdırılması üçün şərait yaratmaqdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə istedadlı uşaqlarla işləyən pedaqoqların onlara yanaşma metodikasının təşkili işində dəyərlidir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. "Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə dövlət proqramı (2006-2010-cu illər)". Bakı: Təhsil, -2006. -48 s.
2. Azərbaycan Respublikası Təhsil Qanunu, Bakı: -2009.
3. Əhmədov, H. Pedaqogika. / H. Əhmədov, N. Zeynalova. –Bakı: Elm və Təhsil, -2021. -544 s.
4. (https://e-qanun.az/downloadWord/11601)


**E-mail:** rozaqalandar@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **S.V. Rüstəmova**
*ped.ü.fəls.dok.* **Ş.Ş. Tahirova**
**Redaksiyaya daxil olub:** 08.05.2023.